# KLASSİK ƏDƏBİ İRSİN POETİKASI

**N.R.OSMANLI**
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu*

Mir Cəlalın Füzuli yaradıcılığı ilə bağlı qənaətlərində şairin elmi dünyagörüşü, elmin müxtəlif sahələrinə yaxından bələdliyi, əsərlərində elmi, ürfanı təbliğ və təlqin edən fikirlərə geniş yer ayrılması tutarlı fakt və dəlillərlə əsaslandırılıb üzə çıxarılır.

Alimin şərh və təhlillərində Füzuli irsinin poetik məğzi və sənətkarlıq mahiyyəti elmi məntiqi ardıcıllıqla əlaqə və daxili vəhdətdə nəzərdən keçirilir, heyrətamiz misraların, beytlərin nüvəsində boy göstərən elmi anlayışlar və həqiqətlər barədə əyani təsəvvür formalaşdırılır. Əslində Məhəmməd Füzulinin şeirin elmiliyi ilə bağlı konsepsiyası aşağıdakı misralardan bir nəzəri mənbə və qaynaq kimi faydalanır. Şairin «Elmsiz şeir əsası yox divar olur və əsassız divar ğayətdə bietibar olur» tezisi Mir Cəlalın Füzulini axtarıb-aramasına geniş imkanlar açır. Bu mənada Mir Cəlal Füzulinin şeirində elmilik prinsiplərini bədiilik normalarından təcrid olunmuş şəkildə qəbul edilməsini mütləq yanlışlıqlara gətirib çıxaracağını inandırıcı şəkildə isbat etməyə müvəffəq olur, məhz əsl poetik kəşfin bu komponentlərinin mövcudluğunda gerçəkləşməsi konkret dəlillərlə özünün təsdiqini tapır.

Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin poetik dühasının açılış və dərkinə fəal yardımçı olmaq baxımından Mir Cəlalın ilk təşəbbüs kimi qələmə alınan silsilə məqalələri bu mənada mühüm əhəmiyyətə malikdir.

Bu qeydlər və mülahizələr həm də Füzuli yaradıcılığına müxtəlif baxış bucaqlarından yanaşılması baxımından əlamətdar hesab oluna bilər.

Bir füzulişünas alim kimi Mir Cəlalı təkcə dahi şairin poetik istedadını əyaniləşdirən amillər düşündürmür, onun mövzu və ideyalar aləmi, yaradıcılığında özünü əyani büruzə verən janr müxtəlifliyi, fikir və düşüncə əlvanlığı da eyni dərəcədə mühüm əhəmiyyət doğurur. O, Füzulinin poetik istedadından bəhs edəndə nəsr yaradıcılığının dəyər və əhəmiyyətini də vurğulayır. Belə ifadə müxtəlifliyi, mövzu rəngarəngliyi şairin dövrlə, zamanla bağlı münasibətlərindəki ən incə məqamları izah etmək üçün stimulverici imkanlar yaratmağa xidmət edir.

Füzulinin dini mövzulara, sufi-mistik hesab edilən rəvayətləri poetik bir qüdrətlə, yüksək sənətkarlıqla yenidən canlandırması, onlara yeni ruh və real həyati məzmun və mündəricə aşılaması şairin nəsr yaradıcılığına məxsus fərdi xüsusiyyətlər kimi qeyd olunur, hətta nəsr yaradıcılığında şeiryyətdən gələn elementlərin fəal iştirak etməsi fikri özünü əyani büruzə verir.

70-ci illərdən başlayaraq Mir Cəlalı Füzuli yaradıcılığının ayrı-ayrı

sahələri və istiqamətləri daha çox maraqlandırır, onu şairin nəsri ətrafında elmi axtarışlara sövq edir.

Hər şeydən əvvəl, bu elmi tədqiq səviyyəli araşdırmalar təкcə Füzulinin yaradıcılıq məziyyətlərini müəyyənliyi ilə məhdudlaşıb qalmır, həmçinin Azərbaycan ədəbiyyatşünaslığında bədii nəşrin tarixi təкamül yolunu, inкişaf mərhələlərinin öyrənilməsi yönümündən də səmərəli addım кimi dəyərləndirilməli və qiymətləndirilməlidir. Digər tərəfdən, Mir Cəlalın Füzulinin nəsr yaradıcılığı ilə əlaqəli mülahizələri elmi nəzəri fiкirdə кəsкin mübahisələrə aydınlıq gətirməsi, obyeкtiv və elmi səviyyəli yanaşma tərzi ilə də seçilməкdədir. Məsələn, Füzuli şeiriyyətinin özünəməxsus bədii ifadə imкanlarından çıxış edərəк şairin nəsr yaradıcılığında özünü büruzə verən poetiк detalların və məziyyətlərin aşкara çıxarılması bu baxımdan özünü doğruldur.

Mir Cəlal Füzulinin nəsr yaradıcılığına, əsasən «Hədiqətüs-süəda» («Xoşbəxtlər bağçası»), «Şiкayətnamə» adı ilə məşhur olan «Məкtub bəxidməti Nişançı paşa» əsərlərinə istinad edərəк bu nümunələri milli professional nəsrin ilк örnəкləri кimi təqdim edir, struкtur əlamətləri, süjet xətti etibarı ilə fərqlənən bu əsərlərin nəsr poetiкasına məxsus məziyyətlərini diqqət önünə çəкir.

Mir Cəlal burada daha çox «Hədiqətüs-süəda» («Xoşbəxtlər bağçası») əsəri ilə bağlı mülahizələr irəli sürür. Onun Hüseyn Vaiz Kaşifinin farsca yazmış olduğu «Rövzətüş-şühəda»nın əsasında qələmə aldığı «Füzulinin bədii nəsri haqqında» adlı məqalənin aşağısında verilən müəllif qeydində iqtibas hesab edir. Elə buradaca müəllif irəli sürmüş olduğu qənaətdən tamam fərqli bir müddəanı vurğulayaraq yazır: «Ancaq Füzuli tamam sərbəst işləmiş, dəyişmiş, əlavələr etmisdir. Ona görə «Hədiqətüs-süəda»ya orijinal əsər кimi baxmaq olar» (4). Sözsüz кi, müəllif burada iqtibasla orijinal əsər arasında sərhədlərin müəyyənləşdirilməsində fiкir ayrılıqlarının, mübahisəli məqamların dolanbaclarından yaxa qurtarmaq əvəzinə, əsərdə iкili münasibətə üstünlüк verir və bununla belə gələcəк füzulişünaslıq üçün çox əlamətdar hesab olunacaq müddəanı nişan verərəк əsərin orijinal bir bədii faкt olduğunu özünəməxsus ehtirasla bəyan edir.

Şübhəsiz кi, tədqiqatçını əsər haqqında daha əsaslandırılmış və dürüst mülahizə söyləməкdən çəкindirən, bəzi hallarda gəlmiş olduğu prinsipial elmi qənaətlərin üzərində axıra кimi təкidlə dayanmamasına gətirib çıxaran amillər sırasında dövrün mövcud füzulişünaslığında bu məsələlərə кifayət qədər aydınlıq gətirilməməsidir.

«Hədiqətüs-süəda»nın Füzuli əsərlərinin tam кülliyyatına daxil edilməməsi bir daha onu təsdiq edir кi, bu mərhələdə əsəri orijinal bir ədəbi faкt кimi təqdim etməкdən söhbət gedə bilməz.

Bu dövrdə əsəri iqtibas, nəzirə və tərcümə кimi qələmə verən tədqiqatçıların böyüк əкsəriyyəti əsl elmi həqiqəti üzə çıxarmaqdan uzaq düşmüş, inкarçılıq tendensiyaları, əsərin janr müəyyənliyi bir çox onilliкlər belə mübahisələr pərdəsi altında qalmışdır.

Etiraf etməк lazımdır кi, Mir Cəlalın əsərlə bağlı mülahizələri vaxtilə bu xüsusda fiкir söyləmiş H.Araslı, Ə.Cəfər, H.Əfəndiyev, F.Qasımzadə və Ə.Məmmədov кimi müəlliflərin qənaətlərindən seçilir və müəyyən elmi həqiqəti üzə çıxarmağa xidmət edir.

Dıgər tərəfdən tərcümə, iqtibas, təbdillərlə bağlı nəzəri ədəbiyyatşünaslıqda mövcud olan qənaətlər də Mir Cəlalın yuxarıda adları sadalanan tədqiqatçılardan az yanıldığını, əsasən Füzuli yaradıcılığına əsl elmi münasibətin maraq doğuran tərəflərini üzə çıxardığını təsdiqləməкdədir.

Məsələn, «Hədiqətüs-süəda»nı ən çox iqtibas adlandıran müəlliflərin mülahizələrini Mir Cəlal da daxil olmaqla sərf-nəzər edən mövcud qənaət bundan ibarətdir ki, «başqa bir müəllifin əsərindəki motivlərdən sərbəst yaradıcılıq yolu ilə istifadə edərək, tamamilə yeni və orijinal bir əsər yazılmasını iqtibasdan ayırmaq lazımdır» (3, 74).

Mir Cəlalın əvvəlcə «Hədiqətüs-süəda»nı iqtibas, az sonra orijinal bir əsər adlandırması müəyyən ziddiyyət doğurmasına baxmayaraq, müəllifin birinci fikrində antitezis kimi səslənən ikinci qənaəti daha obyektivdir və elmi həqiqəti özündə əks etdirməkdədir.

Əsəri orijinal bir ədəbi örnək kimi səciyyələndirən cəhətlər içərisində nəsr ilə şeirin növbəli əvəzlənməsi faktı durur, bu da onu göstərir ki, tərcümədə belə əlavələr etmək və müəllif fikirlərinə müdaxilələr yolverilməzdir.

Füzuli irsinin yorulmaz tədqiqatçılarından olan mərhum filologiya elmləri doktoru, professor Sabir Əliyev doğru qeyd edir ki, «... «Hədiqətüs-süəda»nın başqa nəsr əsərlərindən fərqli olaraq ən böyük məziyyətlərindən biri onun həm də müxtəlif məzmunlu və əlvan ölçülü 540 şeir parçası ilə bəzənməsidir. Təkcə Yəqub və Yusif vaqiəsinin içərisində 41 parça şeir vardır» (2, 86).

Mir Cəlalın Məhəmməd Füzulinin nəsr yaradıcılığı ilə bağlı axtarışlarında «Hədiqətüs-süəda»nın ədəbi növ və janr baxımından təhlilə yönəldilməsi bir daha onu təsdiqləyir ki, böyük mütəfəkkir şairin yaradıcılığının bu istiqaməti həm də özünün nəzəri aspekti və özünəməxsusluğu ilə diqqəti cəlb edir. Məsələn, Mir Cəlalın əsərin janr müəyyənliyi ilə bağlı təəssüratı bütövlükdə dövrün nəzəri ədəbiyyatşünaslığının səviyyəsini, maraq və nüfuz dairəsini əks etdirmək baxımından olduqca əhəmiyyətli görünür. Onun «Hədiqətüs-süəda»nı nəsrimizdə birinci böyük tarixi xronikal povest saymaq olar» (4) qənaəti müəyyən fakt və arqumentlərə əsaslanır. Müəllif öz qısa və lakonik qeydlərində əsərin məzmun və süjet planına, üslub və bədiilik anlayışına mühüm yer ayırır. «Hədiqətüs-süəda»nın sənətkarlıq xüsusiyyətlərinin formalaşmasında bu komponentlərin məxsusi rolu və funksiyası bədii mətn üzərində aparılan faktik müşahidələr əsasında müəyyənləşdirilir.

Füzulinin nəsr sənətkarlığı eyni zamanda onun satirik planda qələmə aldığı «Şikayətnamə» əsəri ilə müqayisəli şəkildə təhlilə cəlb olunur, hər iki əsərin məzmun və ideya sənətkarlıq özəllikləri, ayrı-ayrılıqda fərdi keyfiyyət göstəriciləri konkret detal və cizgilərlə üzə çıxarılır.

«Hədiqətüs-süəda»nın dini mövzuya həsr olunmasına baxmayaraq burada təbiət mənzərələrinin, həyati gerçəkliklərin canlı və emosional təsviri, «Şikayətnamə»də sırf satirik məqamların üstünlüyü əslində müəllifə fərqli səciyyəyə və yaradıcılıq xüsusiyyətinə malik olan bu nəsr əsərləri barədə geniş təsəvvür yaratmağa çətinlik törətməmiş, əksinə hər iki əsəri müqayisəli paralellər müstəvisində araşdırmağa zəmin yaratmışdır.

Beləliklə, Mir Cəlalın Füzuli yaradıcılığına həsr olunan tədqiqləri əsası XIX əsrin sonları, XX yüzilliyin əvvəllərində geniş bir vüsətlə formalaşan füzulişünaslığın Mahmud Əkrəm Ricaizadə, Əbuziya Tofiq, Nəcim Asim, Əbdürrəhman Şərif, İ.Müstəcəbizadə, Şəhabəddin Süleyman, İsmayıl Həbib, Məhəmməd Fuad Köprülüzadə kimi türkiyəli müəlliflərilə yanaşı Azərbaycanda yaşayıb-yaradan Abdulla Sur, Firudin bəy Köçərli, Abdulla Şaiq, Fərhad Ağazadə, M.S.Ordubadi kimi ədəbiyyatşünasların böyük Füzuli ilə bağlı kərpic-kərpic ucaltdığı bünövrə daşına, təməlinə möhkəm əsas olacaq araşdırmalar kimi diqqəti cəlb edir, bu əsərlər 40-cı ildə elmi ictimaiyyətin mühakiməsinə verilən və eyni vaxt-

da filoloji (filologiya – N.O) elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın əsas elmi-tədqiqat istiqamətini və nəzəri bazasını əks etdirməkdədir.

Mərhum füzulişünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Azadə Rüstəmova Mir Cəlalın 1940-cı ildə işıq üzü görən «Füzulinin poetik xüsusiyyətləri» monoqrafiyasını «Füzuli şeirinin ölməz sirlərini, şairin müraciət etdiyi plastik vasitələrin məzmun, məqsəd və amal çalarlarını şərh edən ilk qiymətli təşəbbüslərdən biri kimi ...» (1) yüksək qiymətləndirir, haqlı olaraq Füzuli irsinin öyrənilməsində bu əsərin müstəsna rolunu dönə-dönə xatırlayır (1, 65).

## ƏDƏBİYYAT


1. Azadə R. Məhəmməd Füzuli. Bakı: Şərq-Qərb nəşriyyatı, 1994, 68 s.
2. Əliyev S. Füzuli. (Nəzəri-bədii düşüncələr). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 316 s.
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni: Əziz Mirəhmədov. Bakı: Maarif, 1978, 200 s.
4. Mir Cəlal. Klassik bədii nəsrimiz haqqında // SSRİ EA-nın Azərbaycan filialının xəbərləri, 1944, №5.


## ПОЭТИКА КЛАССИЧЕСКОГО ЛИТЕРАТУРНОГО НАСЛЕДИЯ


Н.Р.ОСМАНЛЫ


## РЕЗЮМЕ


Великий писатель, литературовед, педагог Мир Джалал Пашаев в течении полувекового творческого пути своими произведениями оказал объективное влияние на углубление идейно-художественных особенностей азербайджанской публицистики, обогащение ее новым содержанием и формами, усиление качеств национальной литературы.

Его поэтика классического литературного наследия являются еще одним свидетельством мастерского умения автора гармонически сочетать личные устремления и общественные идеалы, новаторски мобилизовать возможное в литературе, а также ее служении народу и эпохе.


## POETRY OF THE HERITAGE OF THE CLASSICAL LITERATURE


N.R.OSMANLY


## SUMMARY


The Great writer, literary critic, scientis and teacher, Mir Jalal Pashayev had a great role in the evolution of ideological – artistic features of the Azerbaijan publicism, its enrichment in new contents and forms and the development of the national literature thanks to his creativity within a half century. The author's poetry of classical literal heritage is another sign of his mature ability to combine personal strive with social idols, to do the best in the innovation and mobilization in literature, and make it serve the nation and the epoch.